2025

AZƏRBAYCAN SIĞORTAÇILAR ASSOSİASİYASI

# Bülleten
# APREL

## ASA bayram günlərində baş vermiş sığorta hadisələri ilə bağlı ictimaiyyəti məlumatlandırdı

Azərbaycanda Novruz və Ramazan bayramları günlərində sığorta şirkətlərinə hadisələrlə bağlı 2 634 müraciət daxil olub. Bunun 2296-sı “Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası”, 321-i “KASKO sığortası", 17-si isə “Daşınmaz əmlakın icbari sığortası” növü üzrə baş vermiş hadisələrlə bağlı olub. Ehtimal olunan ümumi təxmini zərər məbləği isə 2 milyon 550 min manat məbləğində müəyyən edilib.



## ASA Banklar Assosiasiyasının 35 illiyinə həsr olunmuş tədbirdə iştirak etdi




Azərbaycan Sığortaçılar Assosiasiyasının İcraçı direktoru Elmar Mirsalayev Azərbaycan Banklar Assosiasiyasının 35, Azərbaycan Bank və Maliyyə Tədris Mərkəzinin 25 illiklərinə həsr olunmuş ziyafətdə iştirak edərək sığorta sektorunun səmimi təbriklərini bank icmasına çatdırmışdır.

## Qeyri-sabit hava şəraiti 800-ə yaxın sığorta hadisəsinə səbəb oldu

15-16 aprel tarixlərində ölkədə hava şəraitinin kəskin dəyişməsi nəticəsində baş vermiş hadisələrə görə 8 sığorta şirkətinə ümumilikdə 769 müraciət daxil olub. Bunun 512-si “Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası” növü, 157-si “Daşınmaz əmlakın icbari sığortası” növü, 77-si “KASKO” sığorta növü, 21-i “Əmlakın yanğından və digər risklərdən sığortası” növü üzrə baş vermiş hadisələrlə əlaqədar olub. Bundan əlavə “Fərdi qəza sığortası” və “Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası” növlərinin hər biri üzrə isə 1 hadisə qeydə alınıb. Ehtimal olunan zərər məbləği 241 min 30 manat həcmində müəyyən olunub.



## Mərkəzi Bankda sığortaçılarla görüş keçirildi

Mərkəzi Bankda ASA-nın və sığorta şirkətlərinin rəhbər şəxslərinin iştirakı ilə sığorta sektorunda rəqəmsal transformasiya və innovasiyaların təşviqi mövzusunda görüş keçirilib. İnteraktiv formada keçən tədbir çərçivəsində sığorta sahəsində rəqəmsallaşma prosesləri, texnoloji həllərin tətbiqi, startaplarla əməkdaşlıq imkanları, eləcə də sığorta texnologiyalarının gələcək perspektivləri müzakirə olunub. Mərkəzi Bankın ekspertləri ilə tədbir iştirakçıları arasında texnoloji inkişaf dövründə qarşıya çıxan çağırışlar və imkanlar barədə fikir mübadiləsi aparılıb.



## ASA “Konstitusiya və Suverenlik İli”nə həsr olunmuş tədbirdə iştirak etdi



Azərbaycan Sığortaçılar Assosiasiyası Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Sahibkarlar Konfederasiyası və KOBİA-nın birgə əməkdaşlığı çərçivəsində təşkil olunmuş "Sahibkarlar günü"nə və 2025-ci il Azərbaycan Respublikasında “Konstitusiya və Suverenlik İli” elan edilməsi ilə əlaqədar “Konstitusiya və Suverenlik” - Azərbaycanda sahibkarlığın inkişafı” mövzusuna həsr edilmiş konfransda iştirak edib.

## ASA Ümumdünya Əməyin Mühafizəsi Gününə həsr olunmuş tədbirdə iştirak etdi

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Sahibkarlar Konfederasiyasının (ASK) birgə təşkilatçılığı ilə 28 Aprel – Ümumdünya Əməyin Mühafizəsi Günü və ilk kollektiv müqavilənin 120 illiyinə həsr olunmuş “Rəqəmsallaşma və süni intellektin iş yerlərinə təsiri” mövzusunda konfrans keçirildi. ASA-nın da dəvətli olduğu tədbirdə dövlət və özəl qurumların, beynəlxalq təşkilatların nümayəndələri, həmçinin həmkarlar ittifaqlarının üzvləri iştirak etdilər.



# Maliyyə Assosiasiyalarının növbəti ağacəkmə aksiyası keçirildi

Müşfiqabad qəsəbəsində növbəti ağacəkmə aksiyası keçirilmişdir.
Bu aksiya Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Mərkəzi Bankı, Azərbaycan Sığortaçılar Assosiasiyası, Azərbaycan Banklar Assosiasiyası, Azərbaycan Mikromaliyyə Assosiasiyası, Azərbaycan Fond Bazarı İştirakçılarının Assosiasiyası və Azərbaycan Fintex Assosiasiyası arasında 13 mart 2023-cü il tarixdə imzalanmış "Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə ağacəkmə tədbirləri üzrə əməkdaşlığa dair" Anlaşma Memorandumu çərçivəsində həyata keçirilir.
Memorandumun məqsədi tərəflərin iştirakı ilə 2023-cü ildən başlayaraq 10 il ərzində hər il 100 000 ağac olmaqla, ümumilikdə 1 000 000 ağacın əkilməsi ilə əlaqədar müvafiq işlərin görülməsindən ibarətdir.












## Dünya sığorta CEO-ları süni zəkaya fürsət kimi baxır

IBM şirkətinin sığortaçılar arasında apardığı sorğuya əsasən, “Sığorta Sektorunda Generativ Süni İntellekt” adlı hesabatını açıqlayıb. Dünya sığorta CEO-larının 51%-i generativ süni zəkaya (GenAI) fürsət, 49%-i isə risk kimi baxır. CEO-ların 77%-i rəqibləri ilə ayaqlaşa bilmək üçün GenAI-ni sürətlə mənimsəməli olduqlarını bildirib. Sorğuda dünyanın 1000-dən çox sığorta CEO-su və bancassurance idarəçiləri iştirak edib.




## Sığorta ilə əlaqəli qiymətli kağızlara maraq artır




2024-cü ilin yekun nəticələrinə görə, “144A təbii fəlakət istiqrazı” bazarının tutumu 45 milyard dolları ötüb. Hesabat dövründə sığorta ilə əlaqəli qiymətli kağızlar (ILS – Insurance-Linked Security) seqmentinin ümumi tutumu isə 107 milyard dollarla rekord həddə çatıb. AM Best-in ILS üzrə direktoru Matt Tuite bildirir ki, təbii fəlakət istiqrazlarında qeydə alınmış yüksək gəlirlilik investorların digər ILS növlərinə də marağını artıracaq.

QEYD: Mətndəki “144A” ABŞ-nin Qiymətli Kağızlar və Birja Komissiyasının (SEC) 144A Qaydasına istinad edir. 144A Qaydası, müəyyən qiymətli kağızların qeydiyyatdan keçmədən SEC tərəfindən ixtisaslı institusional investorlara (iri investisiya fondları, sığorta şirkətləri və pensiya fondlarına) satılmasına imkan verən tənzimləmədir.

## Qlobal sığorta bazarları üçün 2025 proqnozları

Beynəlxalq maliyyə institutu olan "EY" şirkəti "2025 Global Insurance Outlook" hesabatını yayımladı. Hesabatda yer alan əsas məqamlar:

》Qlobal miqyasda kiberhücumlardan itkilərin 99%-i, təbii fəlakətlərdən isə itkilərin 60%-i sığortasızdır.

》Qlobal parametrik sığorta bazarının 2031-ci ilə qədər 29,3 milyard dollara çatacağı gözlənilir.

》2025-2026-cı illərdə qlobal həyat və qeyri həyat sığorta bazarlarının mürəkkəb illik artım sürəti (CAGR) inkişaf etmiş bazarlarda müvafiq olaraq 2% - 2%, inkişaf etməkdə olan bazarlarda isə müvafiq olaraq 5.8% - 4.2% həcmində proqnozlaşdırılır.



## Rusiyada avtomobili 1 günlük də sığortalamaq olacaq - YENİLİK

Milli Sığorta İnformasiya Sisteminin rəsmi məlumatına görə, artıq dünəndən Rusiyada 24 saatlıq avto-icbari sığorta şəhadətnamələrinin yazılmasına start verilib. Bu 1 günlük avto-icbari sığortanın qiyməti 130 rubldan (2.56 AZN) başlayır. Qeyd olunur ki, belə şəhadətnamələr əsasən, taksi sürücülərinə, eləcə də avtomobildən nadir hallarda istifadə edənlər üçün maraqlı olacaq.




## Qlobal sığorta sənayesinin müdafiə boşluqları açıqlandı




"Bain&Company"-nin hesabatına görə, qlobal sığorta sənayesi 2030-cu ilə qədər bütün fəaliyyət sahələri üzrə artan müdafiə boşluqları ilə üz-üzə qalacaq. Hesabata görə, 2030-cu ilə qədər:

》 Təbii fəlakətlərdən yaranacaq itkilərin yalnız 25%-33%-ə qədəri sığorta ilə əhatə olunmuş olacaq;

》 Xüsusilə gənc nəslin marağının azalması nəticəsində həyat sığortasının penetrasiyası 50%-dən aşağı düşəcək;

》 Kiber risklərin yaradacağı zərər 6 il ərzində 250 milyard dollara çatacaq və sığortaçılar bu təhlükənin öhdəsindən təkbaşına gələ bilməyəcək.

## 2025-ci ilin I rübü üzrə sığortalanmış qlobal zərər 53 milyard dolları ötəcək

"Aon"-un 2025-ci ilin I rübü üzrə təbii fəlakətlərin yaratdığı itkilərə dair "Global Catastrophe Recap - Q1" hesabatına görə, Myanma və Çindəki zəlzələlər, ABŞ-dəki Kaliforniya meşə yanğınları və digər konvektiv fırtınalar nəticəsində ümumilikdə 83 milyard dollar həcmində ümumi qlobal iqtisadi itki qeydə alınıb. Hesabat dövründə sığortalanmış zərərlərin isə 53 milyard dolları keçəcəyi gözlənilir. Bu rəqəm 21-ci əsrin birinci rübünün orta göstəricisindən (17 milyard dollar) xeyli yüksəkdir. Kaliforniya meşə yanğınları ümumi sığortalanmış itkilərin 71%-ni, təxminən 38 milyard dollar təşkil edib.




## İstanbul zəlzələsi nəticəsində 569 sığortalı əmlak zərər görüb




Aprelin 23-ü İstanbulda 6.2 bal gücündə baş vermiş zəlzələdən sonra DASK-a (Türkiyənin Təbii Fəlakət Sığortaları Agentliyi) sığortalı əmlaklara dəymiş zərərlə bağlı 569 müraciət daxil olub. Qurumdan bildirilir ki, Mərmərə Bölgəsində 6,8 milyon daşınmaz əmlakın 4,3 milyonu (63.60%-i) icbari zəlzələ sığortası ilə sığortalanıb. İstanbulda isə 4,1 milyon daşınmaz əmlakdan 2,5 milyonu (61.80%-i) bu növ üzrə sığortalıdır.











QROUP

*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Ödənilmiş sığorta məbləği:* ***7.184 AZN***

Xalq Sığorta





*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Ödənilmiş sığorta məbləği:* ***15.483 AZN***



QALA Hayat
Sığorta şirkəti

*Sığorta növü: İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta*
*Sığorta hadisəsi: Ölüm halından*
*Ödənilmiş sığorta məbləği:* ***26.653.70 manat***

QALA SIĞORTA






*Sığorta növü: Nəqliyyat vasitələrinin tam sığortası*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Ödənilmiş sığorta məbləği:* ***11.900 AZN***



MEQA HƏYAT

*Sığorta növü: Həyatın yaşam sığortası*
*Sığorta hadisəsi: Sığorta olunanın sığorta müddətinin sonunadək yaşaması halı*
*Ödənilmiş sığorta məbləği:* ***173.586.90 AZN***

MEQA SIĞORTA




*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Ödənilmiş sığorta məbləği:* ***25.000 AZN***

| Sığorta sinifləri | 2024 I rüb | | 2025 I rüb | | Dinamika | |
|---|---|---|---|---|---|---|
| | Sığorta haqqları | Sığorta ödənişləri | Sığorta haqqları | Sığorta ödənişləri | Sığorta haqqları | Sığorta ödənişləri |
| | min manatla | | | | | |
| Könüllü sığortalar üzrə - cəmi: | 278 312 | 124 136 | 307 945 | 134 102 | 11% | 8% |
| Həyat sığortası üzrə, o cümlədən: | 155 320 | 96 417 | 178 120 | 108 495 | 15% | 13% |
| Həyatın yaşam sığortası | 145 031 | 95 666 | 168 455 | 107 372 | 16% | 12% |
| Həyatın ölüm halından sığortası | 8 132 | 668 | 7 978 | 627 | - 2% | - 6% |
| Əmək qabiliyyətinin sığortası | 999 | 39 | 818 | 151 | - 18% | 288% |
| Sağalmaz xəstəliklərdən sığorta | 1 159 | 44 | 869 | 345 | - 25% | 680% |
| Qeyri-həyat sığortası üzrə, o cümlədən | 122 991 | 27 719 | 129 826 | 25 607 | 6% | - 8% |
| Şəxsi sığorta, o cümlədən: | 70 544 | 20 423 | 77 071 | 17 097 | 9% | - 16% |
| Tibbi sığorta | 68 635 | 20 262 | 74 488 | 16 949 | 9% | - 16% |
| Xaricə səfər edən vətəndaşların sığortası | 983 | 80 | 975 | 70 | - 1% | - 12% |
| Fərdi qəza və xəstəlik sığortası | 926 | 81 | 1 608 | 77 | 74% | - 4% |
| Əmlak sığortası, o cümlədən: | 52 448 | 7 295 | 52 755 | 8 509 | 1% | 17% |
| Əmlakın sığortası, o cümlədən: | 43 527 | 7 246 | 42 885 | 8 462 | - 1% | 17% |
| Hava nəqliyyatı vasitələrinin sığortası | 2 432 | 28 | 0 | 0 | - 100% | - 100% |
| Əmlakın yanğından və digər risklərdən sığortası | 16 622 | 749 | 16 647 | 515 | 0 | - 31% |
| Avtonəqliyyat vasitələrinin sığortası | 13 304 | 4 579 | 15 748 | 6 615 | 18% | 44% |
| Yüklərin (nəqliyyat) sığortası | 1 484 | 94 | 1 280 | 12 | - 14% | - 87% |
| Kənd təsərrüfatı heyvanlarının sığortası | 625 | 359 | 252 | 96 | - 60% | - 73% |
| Su nəqliyyat vasitələrinin sığortası | 2 149 | 0 | 200 | 0 | - 91% | 0 |
| Dəmiryol nəqliyyatı vasitələrinin sığortası | 24 | 0 | 22 | 0 | - 9% | 0 |
| Kənd təsərrüfatı bitkiləri məhsullarının sığortası | 6 804 | 1 438 | 8 652 | 1 224 | 27% | - 15% |
| Əmlakın sığortası ilə bağlı digər siniflər, o cümlədən: | 82 | 0 | 86 | 0 | 4% | |
| - Işçilərin ələduzluğu sığortası | 82 | 0 | 86 | 0 | 4% | |
| Mülki məsuliyyətin sığortası, o cümlədən: | 7 756 | 29 | 8 496 | 26 | 10% | - 12% |
| Hava nəqliyyatı vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası | 49 | 0 | 0 | 0 | - 100% | |
| Ümumi mülki məsuliyyətin sığortası | 5 498 | 22 | 3 891 | 15 | - 29% | - 30% |
| Avtonəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası | 883 | 4 | 957 | 8 | 8% | 94% |
| Peşə məsuliyyətinin sığortası | 1 149 | 0 | 1 255 | 2 | 9% | |
| Işəgötürənin məsuliyyət sığortası | 146 | 0 | 125 | 0 | - 14% | |
| Yük daşıyanın mülki məsuliyyətinin sığortası | 20 | 3 | 3 | 0 | - 87% | - 100% |
| Mülki-hüquqi müqavilə üzrə mülki məsuliyyətin sığortası | 12 | 0 | 150 | 0 | 1 165% | |
| Kredit sığortası, o cümlədən: | 1 164 | 20 | 1 372 | 22 | 18% | 9% |
| Kreditlərin sığortası | 1 164 | 20 | 1 372 | 22 | 18% | 9% |
| İcbari sığortalar üzrə - cəmi: | 94 829 | 29 191 | 91 138 | 29 927 | - 4% | 3% |
| Həyat sığortası üzrə | 20 599 | 751 | 24 153 | 1 026 | 17% | 37% |
| İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta | 20 599 | 751 | 24 153 | 1 026 | 17% | 37% |
| Qeyri-həyat sığortası üzrə | 74 230 | 28 440 | 66 985 | 28 902 | - 10% | 2% |
| Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası | 37 010 | 27 679 | 38 530 | 28 020 | 4% | 1% |
| Daşınmaz əmlakın icbari sığortası | 36 893 | 560 | 28 171 | 832 | - 24% | 49% |
| Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası | 305 | 81 | 251 | 1 | - 18% | - 99% |
| Sərnişinlərin icbari fərdi qəza sığortası | 12 | 0 | 19 | 49 | 58% | |
| Digər icbari sığorta növləri | 9 | 119 | 14 | 0 | 54% | - 100% |
| Yekun | 373 140 | 153 327 | 399 083 | 164 029 | 7% | 7% |

Azərbaycan sığorta bazarında 2025-ci ilin ı rübünün 2024-cü ilin mütənasib dövrü ilə müqayisə etdikdə, sığorta haqlarının 7% artaraq 373,140 min manatdan, 399,083 min manata qədər yüksəldiyi müşahidə olunur.

Bu artımda əsas pay sahibi olan sığorta növləri həyatın yaşam sığortası (23,424 min manat), htibbi sığorta (5,853 min manat), istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta (3,554 min manat) növləridir.




Təqdim olunan qrafiklərdən də görünür ki, 2025-ci ilin I rübünün sığorta ödənişlərinin həcmi də 2024-cü ilin I rübü ilə müqayisədə 7% artıb. Lakin ödənişlər barəsində nəticə çıxarmazdan əvvəl, ödənişlərin strukturunu nəzərdən keçirmək vacibdir. Ödənişlərin artımının əsas səbəbi sağalmaz xəstəliklərdən sığorta növü istiqamətində ödənişlərin artımıdır. Bu istiqamətdə ikinci yerdə  əmək qabiliyyətinin sığortası növü yer alır.

Bazar payı
(sığorta yığımları üzrə-2024 I rüb)




Bazar payı
(sığorta yığımları üzrə-2025 I rüb)




2025-ci ilin yanvar-mart aylarının 2024-cü ilin yanvar-mart ayları ilə müqayisəsindən məlum olur ki, yığımlarda könüllü sığorta növü 2% (29,634 min manat artım) artaraq 307,945 min manat olmuşdur. Ödənişlərin bölgüsündə isə könüllü sığorta üzrə ödənişlərin 1% (9.966 min manat artım) 124,136 min manatdan 134,102 min manat artaraq, bazar payının 82%-ni əhatə etdiyi müşahidə olunur.

Bazar payı
(sığorta ödənişləri üzrə - 2024 I rüb)




Bazar payı
(sığorta ödənişləri üzrə - 2025 I rüb)



Könüllü TOP 5 – 2025 I rüb
Sığorta haqları üzrə




Könüllü TOP 5 – 2025 I rüb
Sığorta ödənişləri üzrə




Müşahidə olunur ki, 2024-cü illə müqayisədə 2025-ci ildə həyatın yaşam sığortası növünün payı 23 mln manat artmış və TOP 5 könüllü sığorta məhsulları arasında 55% təşkil etmişdir. Bu göstərici sığorta ödənişlərində 80% təşkil etmişdir.

İcbari TOP 3 – 2025 I rüb
Sığorta haqları üzrə




İcbari TOP 3 – 2025 I rüb
Sığorta ödənişlər üzrə



# HƏYAT SIĞORTASI ÜZRƏ DİNAMİKA
# (2024 I rüb – 2025 I rüb **haqlar**)

| № | Sığorta növü | Dinamika (min manatla) |
|---|---|---|
| 1 | Həyatın yaşam sığortası | 23,424 |
| 2 | İBHİS | 3.554 |







| № | Sığorta növü | Dinamika (min manatla) |
|---|---|---|
| 1 | Həyatın ölüm halından sığortası | -154 |
| 2 | Əmək qabiliyyətinin sığortası | -181 |
| 3 | Sağalmaz xəstəliklərdən sığorta | -289 |

# HƏYAT SIĞORTASI ÜZRƏ DİNAMİKA
# (2024 I rüb – 2025 I rüb **ödənişlər**)

| № | Sığorta növü | Dinamika (min manatla) |
|---|---|---|
| 1 | Həyatın yaşam sığortası | 11,706 |
| 2 | Əmək qabiliyyətinin sığortası | 112 |
| 3 | Sağalmaz xəstəliklərdən sığorta | 301 |
| 4 | İBHİS | 275 |







| № | Sığorta növü | Dinamika (min manatla) |
|---|---|---|
| 1 | Həyatın ölüm halından sığortası | -41 |

# QEYRİ-HƏYAT SIĞORTASI ÜZRƏ DİNAMİKA
## (2023-2024 I rüb **haqlar**)

| Sığorta növü | Dinamika (min manatla) |
|---|---|
| Şəxsi sığorta, o cümlədən: | 6.527 |
| Tibbi sığorta | 5.853 |
| Fərdi qəza və xəstəlik sığortası | 682 |
| Əmlak sığortası, o cümlədən: | 307 |
| ƏYDRS | 25 |
| Avtonəqliyyat vasitələrinin sığortası | 2.444 |
| KTBMS | 1.849 |
| Əmlakın sığortası ilə bağlı digər siniflər | 3 |
| İşçilərin dələduzluğu sığortası | 3 |
| Mülki məsuliyyətin sığortası, o cümlədən: | 740 |
| AVSMMS | 74 |
| Peşə məsuliyyətinin sığortası | 105 |
| Kreditlərin sığortası | 208 |
| AVSMMİS | 1.520 |
| Sərnişinlərin icbari fərdi qəza sığortası | 7 |
| Digər icbari sığorta növləri | 5 |







| Sığorta növü | Dinamika (min manatla) |
|---|---|
| Xaricə səfər edən vətəndaşların sığortası | -8 |
| Əmlakın sığortası, o cümlədən: | -642 |
| Hava nəqliyyatı vasitələrinin sığortası | -2.432 |
| Yüklərin (nəqliyyat) sığortası | -204 |
| Kənd təsərrüfatı heyvanlarının sığortası | -373 |
| Su nəqliyyat vasitələrinin sığortası | -1.949 |
| Dəmiryol nəqliyyatı vasitələrinin sığortası | -2 |
| HNVSMMS | -49 |
| Ümumi mülki məsuliyyətin sığortası | -1.607 |
| İşəgötürənin məsuliyyət sığortası | -21 |
| YDMMS | -17 |
| İcbari sığortalar üzrə - cəmi: | -3.691 |
| Daşınmaz əmlakın icbari sığortası | -8.722 |
| DƏİMMİS | -54 |

# QEYRİ-HƏYAT SIĞORTASI ÜZRƏ DİNAMİKA
## (2024-2025 I rüb **ödənişlər**)

| Sığorta növü | Dinamika (min manatla) | |
|---|---|---|
| Əmlak sığortası, o cümlədən: | 1.214 | 17% |
| Əmlakın sığortası, o cümlədən: | 1.216 | 17% |
| Avtonəqliyyat vasitələrinin sığortası | 2.036 | 44% |
| AVSMMS | 4 | 94% |
| Peşə məsuliyyətinin sığortası | 2 | 9% |
| Kreditlərin sığortası | 2 | 9% |
| İcbari sığortalar üzrə - cəmi: | 737 | 3% |
| AVSMMİS | 341 | 1% |
| Daşınmaz əmlakın icbari sığortası | 272 | 49% |

| | Sığorta növü | Dinamika (min manatla) |
|---|---|---|
| -16% | Şəxsi sığorta, o cümlədən: | -3.326 |
| -16% | Tibbi sığorta | -3.313 |
| -12% | Xaricə səfər edən vətəndaşların sığortası | -10 |
| -4% | Fərdi qəza və xəstəlik sığortası | -4 |
| -100% | ƏYDRS | -234 |
| -31% | Yüklərin (nəqliyyat) sığortası | -81 |
| -87% | Kənd təsərrüfatı heyvanlarının sığortası | -263 |
| -73% | KTBMS | -214 |
| -15% | Mülki məsuliyyətin sığortası, o cümlədən: | -3 |
| -12% | Ümumi mülki məsuliyyətin sığortası | -7 |
| -30% | YDMMS | -3 |
| -99% | DƏİMMİS | -80 |
| -100% | Digər icbari sığorta növləri | -119 |

2025-cü ilin I rübünün yığımlarının ötən ilinin eyni dövrünə nisbətən artmasında əsas pay sahibi həyat sığortası məhsullarıdır ki, bu da bütün sığorta bazarının 51%-ni (202,273 min manat) təşkil edir. Qeyri-həyat sığortasında isə bu pay keçən ilin I rübünə nəzərən azalaraq 49% (196,811 min manat) təşkil edir. Ödənişlərdə isə ümumi ödənişlərin 67%-i (109,521 min manat) həyat sığortasının, 33%-i (54,508 min manat) isə qeyri-həyat sığorta növlərinin payına düşür.

# QEYRİ-HƏYAT SIĞORTA ŞİRKƏTLƏRİ ÜZRƏ DİNAMİKA

| № | Qeyri-həyat Sığorta Şirkətləri | 2024 I rüb | | 2025 I rüb | | Dinamika | |
|---|---|---|---|---|---|---|---|
| | | Sığorta haqları (min manatla) | Sığorta ödənişləri (min manatla) | Sığorta haqları (min manatla) | Sığorta ödənişləri (min manatla) | Haqlar | Ödənişlər |
| 1 | "A-Qroup Sığorta Şirkəti" ASC | 4.988 | 3.261 | 4.385 | 2.420 | - 12% | - 26% |
| 2 | "Aqrar Sığorta" ASC | 7.346 | 1.752 | 8.817 | 1.320 | 20% | - 25% |
| 3 | "AtaSığorta" ASC | 2.594 | 983 | 2.488 | 1.074 | - 4% | 9% |
| 4 | "Atəşgah" Sığorta Şirkəti ASC | 12,253 | 4.525 | 14,849 | 8.398 | 21% | 86% |
| 5 | "Azərbaycan Sənaye Sığorta" ASC | 6.713 | 2.115 | 8.640 | 2.785 | 29% | 32% |
| 6 | "AzSığorta" ASC | 3.000 | 313 | 1.910 | 419 | - 36% | 34% |
| 8 | "Xalq Sığorta" ASC | 5.720 | 3.017 | 7.647 | 1.808 | 34% | - 40% |
| 9 | "İpək Yolu Sığorta" ASC | 529 | 72 | 482 | 11 | - 9% | - 84% |
| 10 | "Qala Sığorta" ASC | 27,781 | 3.003 | 25,181 | 5.170 | - 9% | 72% |
| 11 | "Meqa Sığorta" ASC | 9.547 | 2.952 | 7.529 | 3.428 | - 21% | 16% |
| 12 | "PAŞA Sığorta" ASC | 115,946 | 28,106 | 114,882 | 27,676 | - 1% | - 2% |
| | YEKUN | 196,416 | 50,098 | 196,811 | 54,508 | 0% | 9% |

Ödənişlərə münasibətdə 2025-ci ilin I rübündə vəziyyət növbəti qrafikdəkı kimidir. Sığorta ödənişlərinə görə bazarda 86% pay ilə Atəşgah Sığorta Qrupu birinci yerdə qərarlaşdı. İkinci yeri 72% payla Qala Sığorta Qrupu, üçüncü yeri AzSığorta Şirkəti 34% payla, dördüncü yeri 32%-lə Azərbaycan Sənaye Sığorta şirkəti tutdu. Meqa Sığorta Qrupu 16% payla beşinci yerdədir. Beləliklə, biz bazar üzrə bütün sığorta ödənişlərinin 33%-nin 12 qeyri-sığorta şirkətinin əlində cəmləşdiyini deyə bilirik.

## Qeyri-həyat sığorta şirkətləri TOP-5 (sığorta haqları üzrə)




## Qeyri-həyat sığorta şirkətləri TOP-5 (sığorta ödənişləri üzrə)



# HƏYAT SIĞORTA ŞİRKƏTLƏRİ ÜZRƏ DİNAMİKA

| № | Sığortaçının adı | 2024 I rüb | | 2025 I rüb | | Dinamika | |
|---|---|---|---|---|---|---|---|
| | | Sığorta haqları (min manatla) | Sığorta ödənişləri (min manatla) | Sığorta haqları (min manatla) | Sığorta ödənişləri (min manatla) | Haqlar | Ödənişlər |
| 1 | "Atəşgah Həyat" Sığorta Şirkəti ASC | 22 638 | 7 248 | 27 625 | 8 201 | 22% | 13% |
| 2 | "Xalq Həyat" Sığorta Şirkəti ASC | 2 538 | 1 857 | 2 549 | 2 311 | 0% | 24% |
| 3 | "Qala Həyat" Sığorta Şirkəti ASC | 5 190 | 1 011 | 6 536 | 192 | 26% | - 81% |
| 4 | Meqa Həyat Sığorta ASC | 1 962 | 40 | 3 731 | 706 | 90% | 1 647% |
| 5 | "PAŞA Həyat Sığorta" ASC | 143 591 | 87 012 | 161 832 | 98 110 | 13% | 13% |
| | YEKUN | 175 919 | 97 168 | 202 273 | 109 521 | 15% | 13% |

Həyat sığorta şirkətləri TOP- 5 (sığorta haqları üzrə)







(min manatla)

Həyat sığorta şirkətləri TOP- 5 (sığorta ödənişləri üzrə)






AZƏRBAYCAN SIĞORTAÇILAR ASSOSİASİYASI

Index: AZ1000, Baku, Azerbaijan
Ünvan: Mikayıl Useynov 63
Tel\fax: (+994 12) 492 80 45
E-mail:office@asa.az

www.asa.az